# Düzgün idarə olunan iqtisadiyyatın təməli

**Nə görürüksə və hiss ediriksə, ölçüsü var: zamanın, temperaturun, məsafənin, təzyiqin. Amma ölçülər düzgün deyilsə, nəticə də doğru olmaz. Bugünkü texnologiyalar, tibbi diaqnozlar, sənaye istehsalı və hətta gündəlik ticarət bir əsas üzərində qurulub: dəqiq ölçmə.**

Dəqiq ölçmələr, güvənli nəticələr! Bu şüar sadə görünsə də, arxasında bütöv bir elmi sahə - metrologiya dayanır. Metrologiya olmadan nə elm, nə sənaye, nə də gündəlik həyatın dəqiqliyi mümkündür. Ölçmək  dərk etmək, müqayisə etmək və qərar vermək üçün ilk addımdır. Metrologiya isə bu addımın dəqiqliyinə zəmanət verərək, ölçmələrin dəqiqliyini təmin edir və dünya ölkələri arasında ölçü vahidlərinin uyğunluğunu qoruyur.

Təsadüfi deyil ki, hər il mayın 20-də qeyd olunan Ümumdünya Metrologiya Günü ölçmə elminin həyatımızdakı əvəzsiz rolunu bir daha xatırladır. Bu tarix 20 may 1875-ci ildə Parisdə Beynəlxalq Diplomatik Konfransda 17 inkişaf etmiş ölkənin hökumət nümayəndələrinin məşhur Metrik Konvensiyasını imzaladığı gündür. Konvensiyaya uyğun olaraq Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro (BİPM) yaradılmışdır. Ölçmələr üzrə elm sahəsində beynəlxalq əməkdaşlığın əsasları və onun sənayedə, ticarətdə cəmiyyətin mənafeyi naminə praktiki tətbiqi mexanizmləri işlənib hazırlanmışdır. Metrik Konvensiyası bütün ölkələrdə elmi-texniki tərəqqiyə təsir edib. Belə ki, məhz bu sənəddən sonra ölçmələrin metrik sistemi və beynəlxalq vahidlər sistemi tətbiq edilib, onun əsasında isə Beynəlxalq Ölçmələr Sistemi yaradılıb. Metrik Konvensiyanın ən başlıca məqsədi olan ölçmələrin vəhdətinin bütün ölkələrdə təmin edilməsi indi də çox vacib məsələdir.

Azərbaycanda bu sahəni əhatə edən qurum Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adlanır. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə sovet dövründə tətbiq edilən standart və ölçmə sistemlərinin yenilənərək, milliləşdirilməsi zərurəti ortaya çıxdı. Yeni iqtisadi sistemə keçid yerli sənayenin və bazar iqtisadiyyatının qurulmasını, keyfiyyətə nəzarət və texniki tənzimləmənin yaradılmasını tələb edirdi. Üstəlik, Azərbaycan öz iqtisadiyyatını beynəlxalq bazarlara inteqrasiya etdikcə, məhsullar və xidmətlər beynəlxalq standartlara uyğun olmalı idi ki, bu da mərkəzləşdirilmiş, ixtisaslaşmış bir dövlət qurumu olmadan mümkün deyildi.

Ona görə də 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi yarandı. 2008-ci ildən isə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adlanan qurumun məqsədi ölçmələrin vahidliyini (metrologiya) və intellektual mülkiyyət obyektlərinin qorunmasını (patentləşdirmə) təmin etmək, milli standartların hazırlanması və tətbiqini təşkil etməkdir (standartlaşdırma).

Onu da qeyd edək ki, müəyyən edilmiş metroloji norma və qaydalara əməl olunması bu gün Azərbaycan dövlətinin diqqətində olan ən vacib məsələlərdəndir. Ulu Öndər Heydər Əliyev tərəfindən 13 iyun 2000-ci ildə təsdiq edilmiş "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, daha sonra 13 iyun 2013-cü ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş eyniadlı, lakin müasir dövrün tələblərinə uyğun hazırlanmış yeni qanun bu sahənin prioritet istiqamətlərini müəyyənləşdirib və metrologiyanın inkişafına ciddi təkan olub. Hazırda dövlət başçısının apardığı uğurlu iqtisadi siyasətin nəticəsində ölkəmizin ixrac qabiliyyəti yüksəlib, yerli məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması işləri sürətlənib.

Bütün bunlar metroloji təminatın inkişafından xəbər verir. Dövlət başçısı tərəfindən həyata keçirilən qeyri-neft sektorunun inkişafına yönələn məqsədyönlü iqtisadi-siyasi kurs müasir təcrübələrə və insan kapitalına əsaslanan innovativ iqtisadiyyatın inkişafına xidmət edir. Sənayenin effektivliyinin artırılması üçün yeni texnologiyalar, yeni yanaşmalar və metrologiya sahəsinin inkişafı həlledici əhəmiyyətə malikdir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Onun fəaliyyəti, ölkənin keyfiyyətli məhsul istehsalını artırmaq, beynəlxalq ticarət əlaqələrini gücləndirmək və ölkənin texnoloji inkişafını təmin etmək məqsədini güdür. Bu, həmçinin Azərbaycanın qlobal bazarda rəqabət qabiliyyətini artırmağa və beynəlxalq standartlara uyğunluğunu təmin etməyə xidmət edir.

Komitə  ölkədə məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün uyğun standartların tətbiqini təmin edir. Məsələn, İSO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) beynəlxalq standartlarla uyğunluğu təmin etmək, yerli istehsalçıların keyfiyyətə nəzarət sistemlərini gücləndirmək, onların beynəlxalq bazarda tanınmasını asanlaşdırır. Məlumat üçün bildirək ki, İSO dünyanın müxtəlif ölkələrinin milli standartlaşdırma təşkilatlarını birləşdirən beynəlxalq qeyri-hökumət təşkilatıdır. Bu təşkilat məhsulların, xidmətlərin, sistemlərin və proseslərin beynəlxalq səviyyədə uyğunluğunu və keyfiyyətini təmin edən standartlar hazırlayır.

Bundan başqa, istehsal olunan məhsulların müəyyən keyfiyyət tələblərinə cavab verməsini təmin edən sertifikasiya sistemləri qurulur. Bu, keyfiyyəti zəmanət altına alır və istehlakçının etibarını artırır. Komitə Azərbaycanın beynəlxalq ticarət əməliyyatlarında yerini möhkəmləndirmək üçün IEC (Beynəlxalq Elektrik Komitəsi) və digər qlobal təşkilatların müəyyən etdiyi ticarət standartlarına uyğunluğunu təmin edir. IEC elektrik, elektronika və əlaqəli texnologiyalar sahəsində beynəlxalq standartlar hazırlayan və tətbiq edən nüfuzlu beynəlxalq təşkilatdır. Onun əsas məqsədi elektrotexniki məhsul və sistemlərin təhlükəsizliyini, uyğunluğunu və qarşılıqlı işləkliyini təmin etməkdir. Bu standart Azərbaycan məhsullarının qlobal bazara çıxışını asanlaşdırır.

Qeyd edək ki, bəhs etdiyimiz sahənin beynəlxalq tələblər səviyyəsində inkişafına nail olmaq məqsədilə komitə yanında Dövlət Metrologiya Xidməti yaradılıb. Qısa müddət ərzində qurulmuş infrastruktur və qanunvericilik bazası komitənin bu sahədə mövcud olan əsas beynəlxalq təşkilatlara üzvlüyünü təmin edib. Belə ki, Avrasiya Ölkələrinin Dövlət Metrologiya Qurumlarının Əməkdaşlığı Təşkilatı (KOOMET), MDB-nin Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura (EASC), İslam Ölkələrinin Standartlaşdırma və Metrologiya İnstitutuna (SMİİC) üzv olan Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 2015-ci il yanvarın 1-dən Çəkilər və Ölçülər üzrə Baş Konfrans (CGPM) və Qanunverici Metrologiya üzrə Beynəlxalq Təşkilata (OIML) üzv olub.

Metrologiyanın düzgün və davamlı inkişafı ölkənin iqtisadiyyatında şəffaflığın artırılması, keyfiyyətə nəzarətin gücləndirilməsi və beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu sahəyə göstərilən dövlət diqqəti Azərbaycanın texnoloji və sənaye potensialının daha da inkişafına zəmin yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



Azərbaycan. - 2025.- 20 may (№ 103).- S.9.